# BEYNƏLXALQ ƏMƏK BÖLGÜSÜ XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN ƏSASIDIR

**Müasir dünya iqtisadiyyatı istehsalın və beynəlxalq əmək bölgüsünün qanunauyğun inkişafı nəticəsində formalaşmış və inkişaf etmişdir, bu prosesə bütün dünya ölkələri cəlb olunmuş, dünya ticarəti iqtisadi inkişafın mühüm amilinə çevrilmişdir.**

**Bu, özündə mühüm amilləri, prinsipləri və qanunauyğunluqları birləşdirən mürəkkəb sistemdir. Bu sistemin əsasını beynəlxalq əmək bölgüsü və ayrı-ayrı dövlətlərin milli iqtisadiyyatları, maddi və mənəvi nemətlər, onların bölüşdürülməsi, mübadiləsi və istehlakı təşkil edir. Qlobal miqyasda dünya geniş təkrar istehsal prosesinin hər bir fazası hər bir dövlətin yerləşdiyi ərazidən və xüsusi çəkisindən asılı olaraq dünya təsərrüfat sisteminin formalaşmasına təsir edir.**

Dünya iqtisadiyyatı - bu daim dinamik inkişafda olan, inkişaf edən beynəlxalq əlaqələrə, bazar iqtisadiyyatının obyektiv inkişaf qanunlarına əsaslanan milli iqtisadiyyatların məcmusudur ki, nəticədə vahid dünya iqtisadiyyatı sistemi formalaşır.

Müasir dünya iqtisadiyyatının inkişafını və milli iqtisadiyyatların ona inteqrasiyasını bir neçə dövrə bölmək olar:

I dövr XX əsrin 20-30-cu illərini əhatə edir və dünya iqtisadiyyatının inkişafı böhranla xarakterizə olunur. Oktyabr çevrilişindən sonra qərb ölkələrinin iqtisadi blokadası nəticəsində Rusiya dünya ölkələri ilə iqtisadi əlaqələrini itirdi və SSRİ yaradıldıqdan sonra uzun müddət onu bərpa edə bilmədi.

Dünya iqtisadiyyatının ikinci dövrü - XX əsrin 40-80-cı illərini əhatə edir, bu dövr dünya kapitalist iqtisadiyyatında sahibkarlıq kapitalının intensiv artımı ilə xarakterizə olunur. Bu müddət ərzində istehsal əlaqələrində transmilli korporasiyalar mühüm rol oynamaqla, nəticədə beynəlxalq istehsal kompleksləri yaranmağa başladı, dünya təsərrüfatında çox mühüm iqtisadi proseslər baş verdi. Məsələn, İkinci Dünya müharibəsində öz iqtisadi qüdrətini kəskin gücləndirən ABŞ Qərbi Avropa ölkələrinin iqtisadiyyatına kömək etməyə başladı. Eləcə də 60-cı illərin ortalarında müstəmləkə sisteminin ləğvi böyük qrup inkişaf etməkdə olan ölkələrdə iqtisadi inkişafa təkan verdi.

Dünya iqtisadiyyatının III dövrü - XX əsrin son onilliyini əhatə edir. Coğrafi məkanların mənimsənilmə səviyyəsi artdı, beynəlxalq, bəzi hallarda regionlar üzrə məhsuldar qüvvələr formalaşmağa başladı.

Hazırda sənaye cəhətcə inkişaf etmiş ölkələr - ABŞ, Yaponiya, Kanada, AFR, Fransa, Böyük Britaniya və İtaliya dünya iqtisadiyyatında mühüm rol oynayırlar. Sənaye cəhətcə inkişaf etmiş ölkələrin sənaye məhsulunun 80 faizi və dünya sənaye məhsulunun 60 faizi bu ölkələrin payına düşür.

XX əsrin 80-90-cı illərində dünyada qlobal iqtisadi və sosial proseslər baş verdi ki, bu da dünya təsərrüfatının inkişafına ciddi təsir etdi. Sosializm sistemi ləğv olunduqdan sonra, dünya təsərrüfatının inkişafında, beynəlxalq əmək bölgüsündə və beynəlxalq iqtisadi münasibətlərdə keyfiyyət dəyişiklikləri baş verdi.

Xarici iqtisadi əlaqələr suveren dövlətlərin daxili sosial-iqtisadi tələbatlarını ödəmək üçün mühüm vasitədir. Dünya iqtisadiyyatı bütünlükdə beynəlxalq əmək bölgüsünün potensialından istifadə etmək hesabına daha səmərəli inkişaf edir.

Dövlətlər arasında iqtisadi münasibətlərin yaranması və inkişafı beynəlxalq miqyasda ictimai əmək bölgüsünün nəticəsidir. Öz növbəsində beynəlxalq iqtisadi münasibətlər müxtəlif ölkələr və regionların inkişaf səviyyələrinə və təsərrüfat inkişafının istiqamətlərinə təsir edən mühüm amildir.

Beynəlxalq əmək bölgüsü istehsalın səmərəliliyinin yüksəldilməsi məqsədilə həyata keçirilir, ictimai əmək məsrəflərinə qənaət, məhsuldar qüvvələrin inkişafı və səmərələşdirilməsi üçün vasitədir.

Elmi-texniki tərəqqi şəraitində məhsuldar qüvvələrin əsaslı surətdə təkmilləşdirilməsi xarici iqtisadi əlaqələrin dərinləşməsinə və genişlənməsinə əlavə impuls verir. Elmi-texniki tərəqqinin dərinləşməsi ilə əlaqədar olaraq istehsal olunan məhsulların nomenklaturası sürətlə dəyişir və elmi tədqiqatların istiqamətlərinin differensiyası maddi istehsalın bütün sahələrini səmərəli inkişaf etdirməyə imkan verir. Bu problem məhdud bazara və təbii ehtiyatlara malik olan ölkələr üçün daha xarakterikdir.

Dünya təsərrüfat sistemi milli təsərrüfatların mürəkkəb beynəlxalq iqtisadi əlaqələrinin məcmusudur. Bu sistem şəraitində geniş təkrar istehsal milli iqtisadiyyatların hüdudlarından kənara çıxır və dünya təsərrüfatının üzvi tərkib hissəsinə çevrilirlər. Ölkənin beynəlxalq əmək bölgüsündə iştirakının ümumi göstərici ixrac kvotasıdır. İxrac kvotası ixrac olunan əmtəələrin dəyərinin Ümumi Daxili Məhsula (ÜDM) nisbəti kimi müəyyən edilir.

Beynəlxalq əmək bölgüsü bir-biri ilə qarşılıqlı əlaqədə olan iki proseslə xarakterizə edilir: İstehsal prosesində müstəqil istehsal sahələri ayrılır və seçilir ki, sonralar ayrı-ayrı ölkələrin ərazilərində təmərküzləşir və möhkəmlənir; Ayrı-ayrı ölkələr arasında müəyyən qarşılıqlı münasibətlər yaranır.

Beynəlxalq əmək bölgüsünün üstünlüklərindən istifadə etmək ictimai əməyə əhəmiyyətli dərəcədə qənaət etməyə, investisiya qoyuluşunun səmərəliliyini artırmağa, əmək məhsuldarlığını yüksəltməyə, milli iqtisadiyyatların istehsal vasitələri və istehlak mallarına olan tələbatını ödəməyə imkan verir. İdxal yalnız milli sərhədlər daxilində sərf edilmiş istehsal vasitələri və istehlak mallarının ödənilməsini deyil, eyni zamanda əhalinin alıcılıq qabiliyyətinin tam ödənilməsinə imkan verir. Lakin idxal bəzi hallarda yerli istehsalın imkanlarını məhdudlaşdıraraq problemlər yaradır.

Dünya iqtisadiyyatı uzun tarixi dövr ərzində məhsuldar qüvvələrin inkişafı, milli və beynəlxalq aspektdə əmək bölgüsünün təkmilləşdirilməsi nəticəsində formalaşmışdır. Onun yaranması XIX əsrin ikinci yarısında sənaye çevrilişi, dünya təsərrüfatının formalaşmasının mühüm maddi əsası olan iri maşınlı istehsal ilə əlaqədardır. K.Marksın göstərdiyi kimi, iri sənaye ölkələrin və insanların tələbatının ödənilməsinin bütün dünyadan asılı olduğunu göstərdi. XIX-XX əsrlərdə dünya təsərrüfatı bütöv sistem kimi formalaşdı və bu sistem iri maşınlı istehsal, ümumdünya bazarının inkişafı ilə əlaqədardır.

Bu dövr ərzində iqtisadiyyatın iri sahələri daha sürətlə inkişaf edir ki, bu da beynəlxalq əmək bölgüsünü genişləndirir və dərinləşdirir.

Sənaye cəhətdən inkişaf etmiş ölkələrin xammala, kənd təsərrüfatı və ərzaq məhsullarına tələbatının artması, sənaye məhsulları istehsalının kəskin yüksəlməsinə şərait yaratdı. Bu, ayrı-ayrı ölkələrin müəyyən məhsul növləri üzrə ixtisaslaşmasını tələb edir, ölkələr arasında qarşılıqlı əmtəə mübadiləsi üçün ehtiyac və tələbat yaranır.

Sənaye çevrilişinə qədər beynəlxalq əmək bölgüsü əsas etibarı ilə təbii əsasda baş verirdi. Bu, ölkələrin təbii-iqlim şəraiti, enerji və digər mənbələr ilə müəyyən edilirdi. Təbii iqlim şəraitində olan fərqlər istehsalın ixtisaslaşması üçün ilkin şərait ola bilər. Lakin ixtisaslaşmanın baş verməsi üçün istehsalın texniki bazasında keyfiyyət dəyişikliklərini həyata keçirmək lazımdır. Bu əsasda istehsalın industrial əsasa keçməsi ixtisaslaşmanın təbii iqlim şəraitindən asılılığını azaldır, daha çox texnoloji amillərdən asılı olduğunu göstərir. Kompleks amillər arasında elmi-texniki nailiyyətlərin tətbiqi mühüm yer tutur və bunlar beynəlxalq əməkdaşlığın xarakter və formalarını və hər bir ölkənin bu əməkdaşlıqda iştirakının spesifikliyini müəyyənləşdirir.

Məhsuldar qüvvələrin inkişafı, industrializasiya səviyyəsinin yüksəlməsi nəticəsində ağırlıq mərkəzi tədricən tədavül sferasından istehsal sferasına keçdi. İqtisadiyyatın industrializasiyası ictimai əmək bölgüsünün intensivləşməsini və hərtərəfli inkişafını təmin etdi və milli iqtisadiyyatların dünya istehsalında üstünlüklərini aşkara çıxardı. Müasir dövrdə milli iqtisadiyyatın elə bir iri istehsal sahəsi yoxdur ki, beynəlxalq amillərdən asılı olmasın.

Beynəlxalq əmək bölgüsü - ölkələrarası ictimai əmək bölgüsünün yüksək mərhələsidir. O, ayrı-ayrı ölkələrin bu və ya digər məhsulların istehsalı üzrə iqtisadi cəhətdən səmərəli ixtisaslaşmasıdır. Ölkədə məhsul istehsalı və idxalı üçün əlverişli və sabit şərait yarandıqda, demək olar ki, milli iqtisadiyyatının strukturu və buna müvafiq olaraq beynəlxalq əmək bölgüsündə onun xarakteri dəyişir. Beləliklə, belə nəticəyə gəlmək olar ki, beynəlxalq əmək bölgüsü dövlətdaxili əmək bölgüsünün nəticəsi olmayıb, ictimai əmək bölgüsünün müstəqil növüdür. Beynəlxalq əmək bölgüsünün hərəkətverici qüvvəsi, hər bir ölkənin təsərrüfat subyektlərinin iqtisadi səmərə əldə etməsidir.

İctimai əmək bölgüsü - obyektiv iqtisadi prosesdir. Cəmiyyətdə əmək bölgüsünün inkişaf səviyyəsi iqtisadiyyatın inkişaf vəziyyətindən, əmək məhsuldarlığından və deməli, əhalinin maddi rifah halından asılıdır. Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid zamanı yaranan problemlər əvvəlki əmək bölgüsünün yeni şəraitdə özünü doğrultmadığını göstərdi.

XX əsrin sonunda yeni ixtiralar və kəşflər beynəlxalq iqtisadi münasibətlər sistemini əmələ gətirən elementlərə əsaslı təsir etməyə başladı. Beynəlxalq bazarlarda rəqabətin güclənməsi və resurs bazarlarının məhdudluğu prinsipcə yeni texnologiyalar əsasında iqtisadi artımın optimal yollarını tələb edir. Milli iqtisadiyyatlar arasında sərhədlərin götürülməsi və texnoloji proseslərin ikili xarakteri (pozitiv və neqativ) beynəlxalq siyasətin və elmi-texniki əməkdaşlığın aktuallığını artırır.

Qlobal miqyasda təsərrüfat fəaliyyətinin inteqrasiyası ilə yanaşı, yaxın perspektivdə ixtisaslaşma prosesləri xüsusi aktuallıq kəsb edəcəkdir. Beynəlxalq əmək bölgüsü dünya ölkələrində geniş təkrar istehsal proseslərinin həyata keçirilməsində, bu proseslər arasında qarşılıqlı əlaqələrinin yaranmasında mühüm rol oynayır.

Elmi-texniki tərəqqi, dünya bazarında məhsullara tələbat, ölkənin dünya iqtisadiyyatında mövqeyi, milli iqtisadiyyatın strukturu, ölkənin tarixi inkişaf xüsusiyyətləri, infrastrukturun inkişaf səviyyəsi, ölkənin təbii ehtiyatlarla zənginliyi, əhalinin və ixtisaslı işçilərin sayı, beynəlxalq əmək bölgüsünün əsas amilləridir.

Dünya iqtisadiyyatı və bazarı, beynəlxalq iqtisadi münasibətlər milli iqtisadiyyatların qarşılıqlı asılılığının dərinləşməsi və geniş təkrar istehsal prosesinin beynəlmiləlləşməsi nəticəsində beynəlxalq əmək bölgüsü bazasında formalaşır. Beynəlxalq əmtəə mübadiləsi, xidmətlər, texnologiyalar, kapitalın və işçi qüvvəsinin beynəlxalq yerdəyişmələri bütövlükdə dünya təsərrüfatlarının və onun ayrı-ayrı subyektlərinin (ölkələrin) inkişafını şərtləndirir.

SSRİ dağıldıqdan sonra yeni müstəqillik qazanmış ölkələrin beynəlxalq əmək bölgü sistemində yerinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edirdi. Bu ölkələr ilk vaxtlar "keçid iqtisadiyyatlı" ölkələr qrupunu təşkil edirdilər. Bu qrup ölkələrə Mərkəzi və Şərqi Avropa, MDB ölkələri daxil edildi. Keçmiş İttifaq respublikaları müstəqillik əldə edərək inkişaf səviyyələrinə və təsərrüfatın idarə olunmasına görə fərqlənirlər. Onlar keçid dövrünü başa vuraraq bazar iqtisadiyyatına keçdilər.

Bu dövrdə qlobal beynəlxalq əmək bölgüsündə əhəmiyyətli dəyişikliklər baş verdi. Transmilli komplekslər dünya iqtisadiyyatının qloballaşmasına səbəb oldu və hər bir ölkə vahid dünya əlaqələri sisteminin tərkib hissəsinə çevrildi. İnkişaf etmiş Avropa və Şimali Amerika dövlətləri daha çox elmi-tədqiqat işləri, elm tutumlu məhsullar, müasir xidmət sahələri ilə, inkişaf etməkdə olan ölkələr isə ənənəvi və standartlaşdırılmış məhsullar istehsalı üzrə ixtisaslaşırlar. Buna görə də beynəlxalq əmək bölgüsü sistemində inkişaf etməkdə olan ölkələrin mövqeləri əsaslı şəkildə dəyişir. Onlar xammal ölkələrindən inkişaf etmiş ölkələrin "sənaye sexinə" çevrilirlər. İnkişaf etmiş ölkələr xammal istehsalı üzrə onlara sifarişlər verir və yardım edirlər. Lakin bu yardım və köməklər bəzi ölkələrə şamil edilir. Bu qrup ölkələrə yüksək inkişaf səviyyəsi ilə seçilən Çin, Meksika, Hindistan, Braziliya, Argentina və s. aid etmək olar.

**(davamı növbəti saylarımızda)**

**Ələsgər SARIYEV,**
**Azərbaycan MEA İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, iqtisad elmləri namizədi.**